**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İNSAN HÜQUQLARI ÜZRƏ ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ELXAN ELDAR oğlu VƏLİYEV**

# MİLLİ TƏHLÜKƏSİZLİK ANLAYIŞI VƏ QLOBALLAŞMA PROSESİ

**İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2014**

Dissertasiya işi Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Zeynal Mədət oğlu HƏSƏNALIYEV**
*tarix elmləri doktoru, professor*

**Rəsmi opponentlər:** **Gülzar İsaxan qızı İBRAHİMOVA**
*siyasi elmlər doktoru*

**Elşad Ağahüseyn oğlu HƏSƏNLİ**
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** **Azərbaycan Dillər Universitetinin "Beynəlxalq münasibətlər" kafedrası**

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 17 mart 2014-cü il tarixli 68 saylı əmri ilə AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun nəzdində yaradılmış 5901.01 – "Beynəlxalq münasibətlər" ixtisası üzrə Müvəqqəti Dissertasiya Şurasının «__27__» __06____ 2014-cü il tarixli iclasında, saat «_____»-da keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı şəhəri, H.Cavid pros., 31 A.
Dissertasiya ilə AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» ___________ 2014-cü ildə göndərilmişdir.

**Müvəqqəti Dissertasiya Şurasının elmi katibi, siyasi elmlər üzrə fəlsəfə doktoru:** **R.Ə.Hüseynov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dünya siyasətindəki proseslərin sürətli cərəyan etməsi və beynəlxalq münasibətlərin gələcək perspektivlərinin proqnozlaşdırılmasının çətinliyi baxımından dövlətlərin milli təhlükəsizlik siyasətinin öyrənilməsi və hazırda dünya siyasətinin aparıcı fenomeni kimi çıxış edən qloballaşma proseslərinin tədqiq olunması qarşıda duran aktual məsələlərdəndir. Bu baxımdan dünya birliyinə inteqrasiya edən Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması ilə bağlı məsələlər və respublikanın qloballaşma prosesində iştirakı ciddi şəkildə təhlil olunmalıdır.

XX əsrin 90-cı illərində dünyada baş vermiş qlobal dəyişikliklər Azərbaycan Respublikasının həm beynəlxalq, həm də daxili vəziyyətinə təsir göstərir, yeni geosiyasi vəziyyəti nəzərə almadan, səmərəli islahatların həyata keçirilməsi mümkünsüzdür. Milli təhlükəsizliyin təmin olunması problemi isə strateji əhəmiyyətli məsələ olduğuna görə, problemlə bağlı nəzəri ümumiləşdirmələrin praktika ilə bağlanması zəruridir.

Müasir dövrdə Cənubi Qafqazda, xüsusilə Azərbaycanda Heydər Əliyev diplomatiyasının gücü xarici təhlükəsizliyin təmin olunmasının yeganə düzgün yolu – özünün mənafeləri ilə digər ölkələrin mənafeləri arasında müəyyən balans, beynəlxalq təhlükəsizlik çərçivəsində müəyyən kompromis əldə olunmuşdur.

Milli təhlükəsizlik dünya inteqrasiyasında qloballaşma proseslərinin təsiri ilə güclü keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. Araşdırılan problemin aktuallığı özünü qloballaşma proseslərinin milli təhlükəsizliyə təsirinin aydınlaşdırılması, milli təhlükəsizliklə bağlı elmi-nəzəri araşdırmaların praktiki tərəflərinin tədqiqi, dünyanın aparıcı dövlətləri və beynəlxalq qurumlarının strateji kursunda milli təhlükəsizliyə münasibətin açıqlanması, demokratiya və milli təhlükəsizliyin qloballaşma proseslərinə təsirinin müəyyənləşdirilməsi, müasir dövrdə Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasının prioritet istiqamətlərinin əsaslandırılması, milli təhlükəsizliklə bağlı konkret təklif və tövsiyələrin irəli sürülməsi və s. məsələlərdə göstərir.

Müasir dövrün qlobal proseslərinin genişlənməsi dövlətlərin təhlükəsizliyinin təmin olunması istiqamətində diplomatik münasibətlərin əhəmiyyətini göstərməkdədir. Bununla yanaşı XXI əsrin iki böyük gücü ABŞ və Rusiya Federasiyasının milli təhlükəsizlik konsepsiyalarından irəli gələn milli mənafeləri dünya dövlətlərinin təhlükəsizliyinə hansı mənfi təsirini



göstərə bilər. Bu baxımdan hər iki gücün milli təhlükəsizlikləri uğrunda yürütmüş olduqları siyasətləri region dövlətlərinin inkişafına necə təsir göstərir. Konkret olaraq Cənubi Qafqazda təhlükəsizlik və davamlı inkişafa nail olmaq üçün hər iki dövlət ilə münasibətlərin istiqamətləri necə müəyyən olunmalıdır. Bütün bu məsələlər milli təhlükəsizlik anlayışının bütün dünyada daha çox müzakirə olunduğunu, böyük güclərin öz təhlükəsizliklərini qorumaq yolunda inkişaf etməkdə olan dövlətlərlə diplomatik-siyasi münasibətlərində və əməkdaşlıq istiqamətlərində özünü göstərməkdədir.

Belə olduğu halda Azərbaycan Respublikasının qlobal proseslərdə iştirakı, yüksələn iqtisadi potensialı və uğurla davam edən enerji siyasəti milli təhlükəsizliyinin qorunmasına mühüm təsir edən amillərdəndir. Bu amil böyük güclərin və eləcə də inkişaf etmiş Avropa dövlətlərinin nəzərini Azərbaycana yönəltməkdədir. Bu baxımdan milli təhlükəsizlik anlayışının qlobal proseslərin fonunda tədqiq edilməsi və ya hər iki problemin paralel olaraq geniş təhlil edilməsi göründüyü kimi dissertasiya işinin aktual mövzuya hər olunduğunu göstərməklə, işin elm-nəzəri və siyasi əhəmiyyətini bir daha əsaslandırmış olur.

**Tədqiqatın xronoloji çərçivəsi.** Milli təhlükəsizlik və qloballaşma prosesləri müasir dövrdə daha çox təhlil edilən məsələlərdir. Daha doğrusu qlobal proseslərin fonunda milli təhlükəsizlik anlayışının elm-siyasi, elmi-nəzəri baxımdan müqayisə edilərək təhlillərin aparılması dissertasiya işinin xronoloji çərçivəsinin müəyyən olunmasında vacib amillərdəndir.

Hər iki problem, həm milli təhlükəsizlik, həm də qloballaşma tendensiyaları XX əsrin II yarısı, yəni 1941-1945-ci illər II dünya müharibəsindən sonra, soyuq müharibənin davam etdiyi dövrdə mahiyyətcə tam fərqli istiqamət almış və hazırda XXI əsrdə müasir tədqiqatlara cəlb olunmaqdadır. Bu səbəbdən dissertasiya işinin xronoloji çərçivəsi əsasən 1945-2014-cü illəri əhatə edir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** Tədqiq olunan problemlə bağlı bu vaxta kimi kompleks şəkildə elmi əsərlər yazılmamışdır. Doğrudur, milli təhlükəsizlik və qloballaşma problemləri ilə bağlı istər ölkəmizdə, istərsə də xarici ölkələrdə bir sıra əsərlər, məqalələr və kitablarda paraqraf şəklində yazılmışdır, lakin bunlarda araşdırılan məsələlərin qarşılıqlı bağlılığı, hadisə və proseslərə təsir dinamikası və perspektivləri kimi məqalələr birtərəfli tədqiq olunmuşdur.

Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra R.Ə.Mehdiyev[1], Ə.M.Həsənov[2], M.Qasımov[3], R.Aslanova[4], M.Abdullayev[5], A.Piriyev[6], M.A.Şükürov[7], Y.Qarayev[8] və s. alimlərin əsərlərində mövzu ilə bağlı müxtəlif yanaşmalara, fakt və sənədlərə rast gəlirik ki, bunlardan da yeri gəldikcə tədqiqatda tənqidi şəkildə istifadə edilir.

Akademik R.Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri" kitabında müasir dövrdə qloballaşmanın elm-nəzəri aspektləri və Azərbaycan Respublikasının qlobal dünyada tutduğu mövqeyi, milli təhlükəsizliyi, milli və beynəlxalq maraqları haqqında dəyərli fikirləri şərh olunmuşdur. Ə.Həsənovun "Azərbaycan və ATƏT. Ermənistan - Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda" kitabında respublikanın milli təhlükəsizliyinə bir nömrəli təhdid kimi Dağlıq Qarabağ münaqişəsi və Ermənistan Respublikasının Cənubi Qafqaz regionunda həyata keçirdiyi işğalçılıq siyasətinin bölgədə təhlükəsizliyin qorunmasında yaratdığı sünii əngəllərdən bəhs olunur. Hər iki əsərdən fərqli olaraq bizim tədqiq etdiyimiz mövzu kompleks şəkildə tədqiq olunmuş və sırf milli təhlükəsizlik anlayışı və qloballaşma proseslərinin müasir beynəlxalq münasibətlərdə və bilavasitə Azərbaycan Respublikasının daxili və xarici siyasətində hansı müsbət məqamları üzə çıxarması və bu proseslərin bəzən nəzərə çarpmayan zərərlərindən qorunmağın mümkünlüyünə həsr olunmuşdur.

Digər azərbaycanlı alimlərdən M.Qasımovun "Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri)", R.Aslanovanın "Qloballaşma və mədəni müxtəliflik", M.Abdullayevin "Beynəlxaq münasibətlər tarixi" (XX əsr II hissə.

[1] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-Yeni Nəşrlər evi, 2005, 464 s.

[2] Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan - Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997; yenə onun: Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1998) B.,1998; yenə onun: Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: 2005, 752 s.

[3] Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997

[4] Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı,

[5] Abdullayev M "Beynəlxaq münasibətlər tarixi" (XX əsr II hissə. 1945-2000-ci illər) Bakı, 2003.

[6] Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, 2005

[7] Şükürov M.A. Qlobalistika və ekoloji fəlsəfə. Bakı, 2001; yenə onun: Qloballaşma: mahiyyəti və perspektivləri. Bakı, 2001.

[8] Qarayev Y. XXI əsr. Qlobal sivilizasiya və Şərq dəyərləri // Dirçəliş-XXI əsr, 2001, №1-2.



1945-2000-ci illər), A.Piriyevin "Siyasi strategiya və milli təhlükəsizlik", M.Şükürovun "Qlobalistika və ekoloji fəlsəfə" kitabları və Y.Qarayevin "XXI əsr. Qlobal sivilizasiya və Şərq dəyərləri" mövzulu elmi məqaləsində milli təhlükəsizlik anlayışı və qloballaşma proseslərinə qismən toxunulmuş, bizim tədqiq etdiyimiz dissertasiya işi isə mövcud problemlə bağlı konseptual araşdırmanın nəticəsidir.

Mövzu ilə bağlı birbaşa olmasa da son dövrlərdə Rusiya tədqiqatçıları və politoloqları əsərlərində elmi əhəmiyyət kəsb edən şərh vermişlər. Bunlardan A.A.Proxojev[1], A.V.Vozjenikov[2], V.F.Petrovskiy[3], P.A.Sıqankov[4], A.E.Berdennikova[5], Y.İ.Dubrovin[6], Y.V.Yakovets[7], A.S.Panarin[8], İ.R.Vasilenko[9], İ.S.İvanov[10], A.İ.Utkin[11], V.İ.Ostankov[12] və s. alimlər milli təhlükəsizlik və qloballaşma problemləri barədə elmi araşdırmalar aparmış, milli təhlükəsizliyin daxili və xarici amilləri ilə bağlı nəzəri və praktiki ümumiləşdirmələr etmişlər. Bu baxımdan A.Proxojevin "İnsan və cəmiyyət: sosial inkişaf və təhlükəsizlik qanunları", A.Vozjenikovun "Dövlət idarəçiliyi və milli təhlükəsizlik", V.Petrovskinin "Qlobal strategiyada "milli təhlükəsizlik" doktrinası" kitabları ilk baxışdan diqqət cəlb edir. Əsərlərdə milli təhlükəsizliyin təmin olunmasında sosial-iqtisadi tərəqqi, ordu quruculuğunun yüksək səviyyədə həyata keçirilməsi və ən əsası hər bir dövlətin maraqlarının qorunması nəticəsində qloballaşma proseslərində iştirakın vacibliyi vurğulanır.

P.Siqankovanın "Beynəlxalq münasibətlər", A.Berdennikovanın "İnsan sivilizasiyasının qlobal problemləri dövlətin milli təhlükəsizlik aspekti

[1] Прохожев А.А. Человек и общество: законы социального развития и безопасности. М., 2002.

[2] Возжеников А.В., Прохожее А.А. Государственное управление и национальная безопасность. М.,1999.

[3]Петровский. В.Ф. Доктрина «Национальной безопасносьти » в глобальной стратегии США. М., 1980.

[4] Цыганков П. А. Международные отношения. М., 1996.

[5] Берденникова А. Е. Глобалные проблемы человеческой цивилизации как аспек националной безопасности государства. М., 2002.

[6]Дубровин Ю.И. Проблемы формирования новой системы глобальной безопасности. М., 2003.

[7] Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций. М., 2003.

[8] Панарин А.С. Искущение глобализмом. М., 2000.

[9] Василенко И.А. Политическая глобалистика. М., 2000.

[10] Иванов И.С.Внешняя политика России и мир. Статьи и вступления. М. 2000.

[11] Уткин Ф.И. Мировой порядок 21 века. М., 2001.

[12] Останков В.И. Военная безопасность России в начале XXI столетия. М., 2007.

kimi", Y.Dubrovinin "Qlobal təhlükəsizliyin yeni sisteminin formalaşması problemləri", Y.Yakovetsin "Qloballaşma və sivilizasiyaların qarşılıqlı təsiri", A.Panarinin "Qloballaşma ilə fitnə", İ.Vasilenkonun "Siyasi qlobalistika", İ.İvanovun "Rusiyanın xarici siyasəti və dünya", F.Utkinin "XXI əsrin dünya nizamı", V.Ostankovun "XXI yüzilliyin əvvəllərində Rusiyanın hərbi təhlükəsizliyi" əsərlərində milli təhlükəsizliyin möhkəmlənməsində sosial amillərin vacibliyi, dövlətin idarə olunmasında milli təhlükəsizliyin mühüm əhəmiyyəti, sivilizasiyaların qarşılıqlı münasibəti və ya qlobal strategiyanın düzgün müəyyən olunmasında doktrinal sənədlərin işlənib hazırlanmasının bu işdə böyük səmərə verməsinin elmi-nəzəri əsasları göstərilir. Təqdim olunan dissertasiya işi isə Azərbaycan da daxil olmaqla dünyada baş verən qloballaşma proseslərinin müsbət və mənfi xüsusiyyətlərinin qabardılması və milli təhlükəsizlik anlayışının daha geniş mahiyyəti və araşdırılmasından ibarətdir.

Rus alimləri ilə yanaşı Qərb və ABŞ müəlliflərindən Z.Bjezinski [1], H.Kissincer [2], R.Koen [3], R.Smit [4] və başqaları mövzu ilə bağlı fikirlər söyləmişlər. Hər dörd müəllifin siyasi təhlillərində geniş yer verdikləri məsələ beynəlxalq təhlükəsizliyin daimi olması üçün sülh və demokratiya prinsiplərindən çıxış etməyin vacibliyi ilə bağlıdır. Z.Bjezinskinin məşhur "Şahmat lövhəsi" əsəri, H.Kissincerin "Diplomatiya" və ya R.Koen və R.Smitin "Beynəlxalq təhlükəsizlik" kitabları dissertasiya mövzusunu bütövlükdə əks etdirməsə də əsərlərdə milli təhlükəsizliyin əldə olunması üçün beynəlxalq təhlükəsizliyin qorunmasına diqqət çəkilir. Buradan belə nəticə çıxara bilərik ki, hər bir dövlət milli təhlükəsizliyini qoruyaraq beynəlxalq təhlükəsizliyiə ciddi dəstək vermiş olur. Bizim araşdırdığımız tədqiqat işi isə sırf milli təhlükəsilik anlayışı və qloballaşma proseslərinə birgə yanaşma tərzində elmi-nəzəri yanaşma tələb edir ki, dissertasiya işi Rusiya Avropa və Qərb yazarlarının məsələyə münasibətindən fərqlənir və bununla da kompleks tədqiqat yerinə yetirilmiş olur.

**Tədqiqatın mənbə bazası.** Problemlə bağlı mənbələri iki qrupa, yerli və xarici nəşrlərə bölmək olar ki, bunların hər biri spesifik xüsusiyyətə malikdir. Tədqiqatda xarici qaynaqlardan tənqidi şəkildə istifadə edilmişdir.

[1] Бжезинский З. Великая Шахматная Доска. М.,1999; yenə onun: Выбор-мировое господство или глобальное лидерство, М., 2004

[2] Киссинджер Г. Дипломатия. М., 1997

[3] Koen R., Nay J. International Security. 3 ed. N.Y., University Press, 1994

[4] Smeet R. International Security. N.Y., 2003. 248 p.



Yerli mənbələrdən "Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu" [1] və milli təhlükəsizlik haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 3 avqust 2004-cü il sərəncamı.

Nəşrlərdən Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli, regional və beynəlxalq təhlükəsizliklə bağlı apardıqları danışıqlar, çıxış, məruzə və tövsiyələrini əks etdirən çoxcildli kitablar mənbə baxımından mühüm elmi-nəzəri əhəmiyyətə malikdir və tədqiqatda tələb olunan səviyyədə istifadə edilmişdir.

Bu baxımdan XIV cildlik "Müstəqilliyimiz əbədidir" [2] kitablarında müstəqil Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ölkənin milli təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində gördüyü işlər və həyata keçirdiyi uzaqgörən siyasəti haqqında maraqlı faktlar toplanmışdır. Bu cildlərdən müqayisəli metod şəklində elmi ədəbiyyat kimi istifadə olunmuşdur.

Prezident İlham Əliyevin müasir dövrdə, qlobal proseslərin genişləndiyi dünyada Azərbaycan Respublikasının milli təhlükəsizliyinin qorunması istiqamətində həyata keçirdiyi daxili və xarici siyasətin prioritetlərini əks etdirən və akademik R.Mehdiyevin elmi məsləhətçiliyi ilə nəşr olunan IV cildlik "İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar" [3] kitabları mövzunun tədqiq edilməsində istifadə olunan samballı ədəbiyyatlardandır. Bunnlardan başqa digər yerli elmi ədəbiyyatlar da dissertasiya işinin tədqiqinə cəlb edilmişdir.

Mövzu ilə bağlı son illər nəşr olunan Rusiya, Avropa və Qərb alimlərinin də əsərləri elmi əhəmiyyət kəsb edən mənbələrdəndir. Bu mənbələrdən S.Kortunovun "Təhlükəsizlik siyasətinin təşəkkülü: Qloballaşma problemi kontekstində Rusiyanın təhlükəsizlik siyasətinin formalaşması" [4], R.M.Dolanın "ABŞ-ın milli təhlükəsizlik siyasəti və UFO" [5], A.Barışevin

[1] Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. 29 iyun, 2004, s.12 / "Azərbaycan" qəzeti, 6 avqust, 2004.

[2] Əliyev H. Müstəqilliyimiz əbədidir. XIV cilddə, I c., 597 s., II c. 588 s., III c. 479 s., IV c. 513 s., V c. 490 s., VI c. 501 s., VII c. 509 s., VIII c. 472 s., Bakı: Azərnəşr, 2005.

[3] İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. I kitab / bur. məsul akademik R.Mehdiyev. Bakı: Azərnəşr, 2008, 424 s.; II kitab, 2009, 432 s.; III kitab, 2009, 416 s.; IV kitab, 2009, 400 s.

[4] Кортунов С. Становление политики безопасности: Формирование политики национальной безопасности России в контексте проблем глобализации. М.: Наука, 2003, 612 с.

[5] Dolan R.M. UFOs and the national security state. Washington: Lori, 2014, 564 p.

"Rusiyanın milli təhlükəsizliyi problemi kontekstində ABŞ və NATO-nun müasir strategiyası"[1] və digər xarici mənbələr dissertasiya işinin yazılmasında elmi əhəmiyyəti ilə ilə seçilən əsərlərdəndir. Kitablarda milli təhlükəsizlik anlayışı ilə bağlı fikirlər açıqlanır və qlobal proseslərin müsbət və mənfi tərəfləri şərh olunur. Hər iki problem əsərlərdə ayrı-ayrılıqda dövlətlərin maraqları kontekstində təhlil olunur. Bizim tədqiq etdiyimiz dissertasiya işi isə milli təhlükəsizlik anlayışı ilə qlobal proseslərin qarşılıqlı, vəhdətdə olmasının elmi-nəzəri problemlərinin həllinə həsr olunmuşdur. Bu məsələdə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin möhkəmləndirilməsi, yad ünsürlərə qarşı mübarizədə dövlətin balanslaşdırılmış siyasətinin elmi əhəmiyyəti və bununla paralel olaraq müasir dövrdə qloballaşmanın mənfi təsirlərindən qorunmaq yolunda hökumətin siyasi fəaliyyəti təhlil olunmuşdur.

Müasir politoloji ədəbiyyatda qaynaq qismində müxtəlif KİV-lərdən götürülmüş materiallar və faktlarla yanaşı, internet saytlarındakı informasiyalar xüsusi əhəmiyyətə malikdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Problemin məqsəd və vəzifələri tədqiqatın aktuallığını müəyyənləşdirmişdir. Dissertasiya işinin əsas məqsədi milli təhlükəsizliklə qloballaşma arasında əlaqənin aşkar edilməsidir. Buna nail olmaq üçün aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

– problemin hal-hazırkı tədqiqat səviyyəsi aydınlaşdırılmış;

– problemin tədqiqində və öyrənilməsində əsas istiqamətlər elmi cəhətdən təhlil edilərək, açılıb göstərilmiş;

– milli təhlükəsizlik və qloballaşma konsepsiyalarının mahiyyəti təhlil olunmuş;

– aparıcı ölkələrin və beynəlxalq təşkilatların milli təhlükəsizlik siyasətlərinin əsas istiqamətləri təsbit edilmiş;

– qloballaşma prosesinin əsas xüsusiyyətləri və ziddiyyətləri göstərilmiş;

– Azərbaycan Respublikasının qloballaşma prosesində iştirakının özəllikləri aydınlaşdırılmış;

– qloballaşma prosesində demokratiya və sülh quruculuğunun rolu öyrənilmiş;

[1] Барышев А. Современная стратегия США и НАТО в контексте проблем национальной безопасности России. Москва: ОГИ (Объединенное Гуманитарное Издательство), 2011, 248 с.



– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin son vəziyyəti, Azərbaycan Respublikasının və Cənubi Qafqaz regionunun təhlükəsizliyi baxımından araşdırılmışdır.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** müasir beynəlxalq münasibətlərin əsas tədqiqat metodlarından olan şəraitin təhlili (müşahidə, sənədlərin öyrənilməsi, müqayisəli analiz və s.), kontent və ivent analiz, proqnozlaşdırma kimi metodlar təşkil edir. Tədqiqat prosesində digər elmlərin tarix, sosialogiya, politologiya və formal məntiqin metodlarından da geniş istifadə edilmişdir. Tədqiqatın metodoloji əsasını bütün mənbə və məlumatların kompleks şəkildə və tənqidi təhlil əsasında müqayisəli şəkildə əsaslandırılmasına söykənən obyektiv tarixi tədqiqat metodu təşkil edir.

**Dissertasiya işinin elmi yeniliyi** aşağıdakı müddəalarda öz əksini tapmışdır:

– milli təhlükəsizlik və qloballaşma problemlərinin qarşılıqlı əlaqəsi, Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin formalaşmasının müasir şəraitinin xüsusiyyətləri təhlil edilərək göstərilmiş;

– Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə milli təhlükəsizlik konsepsiyasının mükəmməl əsaslarda təkmilləşdirilməsi təsbit olunmuş;

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi müdrik siyasətin nəticəsi olaraq ölkənin qlobal proseslərin mənfi təsirlərindən kənarda qaldığı və dövlətin milli təhlükəsizliyinin qorunmasında ciddi siyasi iradəsinin mühüm əhəmiyyət kəsb etdiyi elmi-nəzəri baxımdan əsaslandırılmışdır;

– milli təhlükəsizlik anlayışı və qloballaşma prosesində sülh və demokratiya amillərinin rolu dərindən tədqiq olunmuş;

– yeni dünya düzənində bir sıra dövlətlərin və beynəlxalq təşkilatların milli təhlükəsizlik siyasətlərinin müasir çağırışlara uyğun şəkildə təqdim olunduğu təsbit edilmişdir;

– Mövzu ilə bağlı bəzi mənbə və elektron informasiya resurslarının ilk dəfə elmi dövriyyəyə buraxıldığı müəyyən olunmuşdir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın müddəaları və onun elmi nəticələri dövlət idarəçiliyində milli təhlükəsizlik siyasətinin, xarici siyasətin elmi-nəzəri istiqamətlərinin işlənilməsində, tədqiqat işlərinin aparılmasında, ali məktəblərin beynəlxalq münasibətlər, hüquq, politologiya, tarix fakultələrində mühazirələrin oxunmasında istifadə edilə bilər, təbliğat-təşviqat işlərində elmi və praktiki nöqteyi-nəzərdən yardımçı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi ilə bağlı müəllifin ümumilikdə 8 əsəri: 6 elmi məqaləsi (o cümlədən bir məqalə xaricdə), 2 beynəlxalq konfransda tezisləri çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işinin quruluşu aşağıdakı kimi müəyyənləşdirilmişdir: giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısı.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"**ində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası göstərilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası aydınlaşdırılmış, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti qeyd olunmuşdur.

Dissertasiyanın "**Müasir milli təhlükəsizlik və qloballaşma konsepsiyalarının nəzəri metodoloji əsasları və Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti**" adlanan **I fəsli** 3 yarımfəslə ayrılır.

***""Milli təhlükəsizlik" anlayışına konseptual yanaşmalar"*** adlanan birinci yarımfəsildə qeyd edilir ki, diplomatik-siyasi leksikona XIX əsrin sonlarında dövlətin təhlükəsizliyi anlayışının sinonimi kimi daxil olmuş və tezliklə vətəndaşlıq hüququ qazanmış, ingiliscə "national security" sözünün hərfi tərcüməsi olan "milli təhlükəsizlik" anlayışı faktiki olaraq, prinsipcə həm milli, həm də dövlət təhlükəsizliyi kimi tərcümə oluna bilər. Təhlükəsizlik anlayışı mürəkkəb, çoxölçülü sosial-siyasi hadisə kimi obyektiv olaraq konkret tarixi xarakter daşıyır və təbiət - insan - cəmiyyət sistemində qarşılıqlı əlaqələrin bütün forma və istiqamətləri ilə sıx bağlıdır.[1]

Milli təhlükəsizlik kompleks tədbirlər sistemindən ibarət olub, dövlətin və cəmiyyətin mövcudluğunun qorunmasına xidmət edir, dövlətin gücü ilə təmin olunur. Milli təhlükəsizliyin tərifində milli təhlükəsizlik sisteminin vacib elementləri olan millət, şəxsiyyət, cəmiyyət, dövlət, həyati vacib mənafelər və hədələr anlayışları həlledici anlayışlardır.[2]

Təhlükə mənbəyindən asılı olaraq milli təhlükəsizlik daxili və xarici təhlükəsizliyə ayrılır. Bundan əlavə, təhlükəsizliyin növlərinə görə təsnifatının da mühüm əhəmiyyəti vardır. Bu təsnifat milli təhlükəsizliyin təmin olunması üzrə daha konkret siyasətin və strategiyanın hazırlanmasına

---

[1] Раджабли А.А. Теория национальной безопасности Б.,2005, s.9
[2] Кукулка Ю. Проблемы теории международных отношений. М., 1998, s.6-7



kömək edir. Bu təsnifatda A.B.Loqunov təhlükəsizliyi siyasi, hərbi, sosial, iqtisadi, ekoloji və informasiya təhlükəsizlik növünə ayırır.[1]

Milli təhlükəsizlik məsələlərinin tədqiqatı ilə bağlı konseptual yanaşmaların axtarışı problemi, milli təhlükəsizlik nəzəriyyəsində mərkəzi problemlərdən biridir. Azərbaycanlı müəlliflərdən A.Piriyev milli təhlükəsizliyin 7 əsas cəhətini ayırır və hər birinin səciyyəsini verir. Müəllifə görə, siyasi strategiyada milli təhlükəsizlik problemlərinə geniş mənada yanaşmaq lazımdır, çünki ölkənin milli təhlükəsizliyini birtərəfli qaydada təmin etmək qeyri-mümkündür.[2] Yaranmış şəraitdə dövlətlər milli təhlükəsizliyin təmin edilməsi üçün birgə çıxış etmək məcburiyyətində qalırlar ki, bu yanaşma milli təhlükəsizlik problemlərinin tədqiqatına klassik, realist yanaşmadır.

Mühüm nəzəri yanaşmalardan biri də təhlükəsizliyin bölünməzliyi və qarşılıqlılığı prinsipidir. Bir tərəfin təhlükəsizlik səviyyəsinin gücləndirilməsi, digər tərəfin təhlükəsizlik səviyyəsinin gücləndirilməsini obyektiv olaraq şərtləndirir.

Təhlükəsizlik problemlərinin tədqiqatı ilə bağlı konseptual-nəzəri yanaşmalardan biri də milli təhlükəsizliyin təmin olunması məsələsidir. Belə yanaşmaya görə, milli təhlükəsizliyin təmin olunması üçün əxlaqi, institusional, hüquqi, sistem və situasiya şərtləri zəruridir.

Milli təhlükəsizlik problemlərinin tədqiqatında müasir konsepsiyaların istifadə olunması mühüm əhəmiyyətə malikdir. Təhlükəsizlik problemləri üzrə bir sıra tədqiqatçıların fikrincə, kooperativ təhlükəsizlik və insan təhlükəsizliyi konsepsiyaları bir çox təlükəsizlik problemlərini daha səmərəli həll edə bilər. 1990-cı illərin əvvəllərində irəli sürülmüş bu konsepsiyalar içərisində demokratik sülh və sosial təhlükəsizlik konsepsiyaları başlıca yer tutur. Bu konsepsiyaların əsasında liberal-idealist nəzəriyyələrin müddəaları da var.[3]

*Kooperativ təhlükəsizlik konsepsiyasının* növləri içərisində ikisi geniş yayılmışdır. Birinci konsepsiya beynəlxalq institutlara və hüquqi normalara müraciət edir*("Qrotsiçi" - rasionalist konsepsiya*). Digər konsepsiya isə əxlaqi normaların universallığını və təhlükəsizliyin əsas meyarı kimi şəxsiyyətin hüquqlarına riayət edilməsini prioritet hesab edir *("Kantçı" - inqilabi konsepsiya)*.

---

[1] Лисичкин В.А., Шлепин Л.А. Глобалная империя Зла. М., Крымский Мост 9 д. Форум 2001, s.12
[2] Piriyev A.Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, 2005, s. 39.
[3] Раджабли А.А. Теория национальной безопасности, s. 20.

*İnsan təhlükəsizliyi konsepsiyası* "Kantçı" kooperativ təhlükəsizlik konsepsiyasına çox yaxındır. Konsepsiyanın çıxış nöqtəsinə görə, fərdlərin təhlükəsizliyinin dövlətlərin təhlükəsizliyindən irəli gəlməsi hipotezi düzgün deyil ki, bununla razılaşmaq qətidir.

*Demokratik sülh nəzəriyyəsinin* əsas ideyası ondan ibarətdir ki, dövlətlər nə qədər çox demokratik olarsa, onların bir-biri ilə müharibə etmək ehtimalı bir o qədər az olar. Bu nəzəriyyəyə görə, sülhün bərqərar olması dünyada demokratiyanın yaranmasını tələb edir.

*Sosial təhlükəsizlik konsepsiyasının* tərəfdarları iddia edirlər ki, təhlükəsizlik sistemində islahatlar aparmaq üçün lazım olan konstruktiv enerji insanın təhlükəsizliyi naminə milli sərhədlər vasitəsilə fəaliyyət göstərən sosial hərəkatlardan qaynaqlanır. Bu konsepsiyaya görə, təhlükəsizlik aşağıdan başlayan bir prosesdir. Fərdlər arasında başlayan münaqişə sosial qruplar və dövlətlər arasında münaqişəyə çevrilməklə lokal və qlobal müharibələri şərtləndirir.

Milli təhlükəsizlik problemlərinin tədqiqi metodologiyasında qərarların hazırlanması və qəbul edilməsi mexanizmi xüsusi yer tutur. Milli təhlükəsizlik sahəsində fundamental, inzibati və qanunvericilik yolu ilə qəbul edilmiş qərarlarda informasiyanın əldə olunması və həqiqiliyi xüsusi əhəmiyyət daşıyır. Hər 3 qərar tipi üçün ümumi cəhət onların müəyyən qaydalara, formal və ya qeyri-formal meyarlara tabe olmalarıdır.

***"Müasir beynəlxalq münasibətlər elmində qloballaşma prosesinin təhlili"***nə həsr olunan ikinci yarımfəsildə qeyd olunur ki, beynəlxalq siyasi elmdə qloballaşmaya dair müxtəlif yanaşmalar mövcuddur. Realist paradiqmanın tərəfdarları onu "sivilizasiyaların toqquşması" ruhunda, dünyanın geopolitik cəhətdən yenidən qurulması kimi dərk edir, neoliberallar qloballaşmaya, qərb dəyərlərinin bütün dünyaya yayılmasını iddia edən "tarixin sonu" kimi, dövlətlərin qarşılıqlı fəaliyyətlərində beynəlxalq hüquq norma və qaydalarının daha geniş yayılması kimi bilavasitə rəqabətlərinin artması nəticəsində sivilizasiyalı ölkələrin birliyinin yaranması kimi baxırlarsa, neomarksistlər qloballaşmanı, dünyada iqtisadi bərabərsizliyin möhkəmlənməsi, məzmunu dünya kapitalizminin siyasətindən ibarət olan imperializm kimi başa düşürlər.[1]

Fransızdilli ədəbiyyatda qloballaşmaya yaxın olan anlayış "mondeallaşma"dır. Son zamanlar getdikcə tədqiqatçıların böyük əksəriyyəti

[1] Цыганков П. А. Теория международных отношений. Учеб. пособие. М., 2002, с. 213-214.



qeyd edirlər ki, qloballaşma "diferensasiya" və "regionlaşma" adlanan əks istiqamətli proseslərlə müşayiət olunur.

F.R.Mirişli qloballaşma proseslərinin mərkəzəqaçma və mərkəzdənqaçma meylləri ilə sıx bağlılığını qeyd edir.[1]

Qloballaşmanın nəticələri üzrə tədqiqatçıların mövqeləri optimist, pessimist və skeptik, yəni, aralıq olmaqla üç yerə bölünür ki, bunların hər biri spesifik xüsusiyyətləri ilə seçilirlər.

Optimistlər qloballaşmanın iqtisadi, siyasi, sosial və mənəvi aspektdə gətirdiyi üstünlükləri qeyd edirlər. Onların bəziləri əsas diqqəti qloballaşmanın ekoloji aspektinə, digərləri isə siyasi və s. aspektlərinə yönəldirlər. Pessimistlər göstərirlər ki, qloballaşma nəinki bütün planetdə azad bazar və ədalətli rəqabət yaratmır, əksinə kapitalın daha çox inkişaf etmiş ölkələrdə mərkəzləşməsini artırır. Skeptiklərə gəldikdə isə, onlar qloballaşmanın xeyriyyəçilik missiyasına və insan sivilizasiyasına zərbə vurması haqqında fikirlərə ehtiyatla yanaşaraq göstərirlər ki, qloballaşma ölkələr və cəmiyyətlər qarşısında yeni-yeni imkanlar açır və eyni zamanda yeni çağırışlar yaradır.[2]

Qloballaşmanın nəticələri kimi dövlətlərarası qarşılıqlı asılılığın, cəmiyyətin bütün sahələrinin beynəlmiləlləşməsinin artması, dövlətdaxili və beynəlxalq münasibətlərin mürəkkəbləşməsi, inteqrasiya proseslərinin və dövlətlərarası əməkdaşlığın genişlənməsi və s. prosesləri göstərmək olar. Qloballaşmanın mahiyyəti çoxşaxəli və çoxcəhətlidir. Qloballaşma prosesinin vüsətini proqnozlaşdırmaq mümkün deyil ki, onun ən mühüm xarakterik xüsusiyyətlərindən biri budur. Qloballaşmanın dinamikası dövlətləri müstəqilliklərinə, siyasi rejimlərinə və iqtisadi inkişaf səviyyələrinə fərq qoymadan özünə cəlb edir. Suverenlikdən imtina edilməsi ideyasının tərəfdarları obyektiv olaraq qeyd edirlər ki, qloballaşmanın əsas hərəkətverici qüvvəsi kimi transmilli kapital çıxış edir.[3] Siyasi nöqteyi nəzərdən qloballaşma özündə ittifaqların siyasətinə yenidən baxılmasını nəzərdə tutan, geosiyasi yenidənqurma kimi başa düşülə bilər. Qloballaşma nəticəsində milli mənafelər və maraqlar öz məzmununa və istiqamətlərinə görə dünya siyasətinin obyektiv amillərinin təsiri nəticəsində dəyişilir və yeni prioritetlər yaranır. Qloballaşma özü ilə bərabər "zəif" və ya "effektiv olmayan" dövlət terminini də yaradır. Qloballaşma dünyada demokratik pro-

[1] Миришли Ф. Р. Глобализация мировой экономики: Феномен Азербайджана. Учеб. М., ИСЭПиМ, 2008, s. 86.
[2] Цыганков П. А. Теория международных отношений, s.221-223
[3] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005, s.125-129

seslərin inkişafına kömək edir.[1] Eyni zamanda qloballaşmanın doğurduğu nəticələr də birmənalı deyildir. Müasir dövrdə qloballaşma qeyri-bərabər və pis idarə olunur, o, keçid dövrünü yaşayan, xammalı, işçi qüvvəsi ucuz olan, daxili istehsalı və bazarı zəif qorunan ölkələrə daha çox ziyan vurur. Bu da nəinki həmin ölkələrin sosial-iqtisadi vəziyyətinə, eyni zamanda milli-mənəvi dəyərlərinə, həyat tərzinə mənfi təsir göstərir və onun keyfiyyətini dəyişir.

Qloballaşma onun müxtəlif iştirakçılarının fəaliyyətlərinin əlaqələndirilməsi üçün səmərəli beynəlxalq institutların və idarəetmə mexanizmlərinin yaradılmasını tələb etməklə, inteqrasiyanın yeni səviyyəsini şərtləndirir.

***"Qloballaşmanın müasir mərhələsində Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti"*** adlanan üçüncü yarımfəsildə Azərbaycan Respublikasının "Milli təhlükəsizlik" haqqında qanununun bu sahədəki boşluğu aradan qaldırmaq sahəsində əhəmiyyəti vurğulanır. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi sahəsində daxili və xarici təhdidlərin aşkara çıxarılması, daxili və xarici təhdidlər barədə xəbərdarlıq edilməsi və onların neytrallaşdırılması üzrə əməliyyat tədbirlərinin reallaşdırılması, suverenliyin və ərazi bütövlüyünün, sərhəd məkanı təhlükəsizliyinin təmin edilməsi, dövlətin hərbi potensialının kifayət qədər yüksək səviyyədə saxlanması və dəstəklənməsi, xarici dövlətlərin kəşfiyyat və pozucu fəaliyyətinin aşkara çıxarılması, xəbərdarlıq edilməsi və qarşısının alınması üzrə səmərəli tədbirlərin görülməsi, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyinin qarantı kimi dövlətin rolunun gücləndirilməsi, təhlükəsizlik sferasında qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığın genişləndirilməsi və s. əsas məsələlər açıqlanır. Yarımfəsildə göstərilir ki, qanunilik, dövlətin maraqlarına riayət edilməsi, təhlükəsizliyin təmin edilməsi üzrə dövlətin məsuliyyəti, beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya, təhlükəsizliyin bütün növlərinin vəhdəti, qarşılıqlı əlaqəliyi və balanslaşdırılması Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin əsas prinsipləridir. Qeyd olunur ki, Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, prezident fərmanları və Azərbaycan Respublikasının digər normativ aktları, Azərbaycan tərəfindən bağlanan və ratifikasiya edilən beynəlxalq müqavilə və sazişlər təhlükəsizliyin təmin edilməsinin qanunverici əsaslarıdır.

[1] Əhmədoğlu. M. Qloballaşma dövründə konsensus nəzəriyyələrinin mahiyyəti. B., 2003, s. 75-83.



Azərbaycanda təhlükəsizlik obyektlərinin, həyati əhəmiyyətli maraqların müdafiə edilməsinin zəruri səviyyəsinin qurulması və dəstəklənməsi üçün milli təhlükəsizliyin təmin edilməsi orqanları və onların fəaliyyətinə nəzarət və gözətçilik mexanizmləri formalaşdırılır və ya yenidən qurulur. 1991-ci ildə Milli Təhlükəsizlik Nazirliyi (MTN) haqqında qanun, 2004-cü ildə kəşfiyyat və əks kəşfiyyat haqqında qanun, 1997-ci ildə müdafiə haqqında qanun, 1996-cı ildə dövlət sirri haqqında qanun, 1999-cu ildə MTN nəzdində Akademiyanın təsis edilməsi haqqında fərman, eləcə də digər müvafiq hüquqi sənədlər Azərbaycanın Milli təhlükəsizliyinin təmin edilməsi prinsiplərini əks etdirir.

Azərbaycanın milli təhlükəsizliyi milli təhlükəsizlik siyasətinin ardıcıl şəkildə həyata keçirilməsi əsasında ölkənin səlahiyyətində olan siyasi, iqtisadi, hüquqi, hərbi, təşkilati və s. vasitələrlə təmin edilir. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi siyasətinin formalaşdırılması və reallaşdırılmasında Azərbaycan Respublikasının Prezidenti, Milli Məclis, Azərbaycan Respublikasının Hökuməti, Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, İcraedici hakimiyyət orqanları, Məhkəmə orqanları iştirak edirlər.[1]

**"Aparıcı dövlətlərin və beynəlxalq təşkilatların təhlükəsizlik srtategiyalarının əsas istiqamətləri"** adlanan **II fəsil** 4 yarımfəslə bölünür.

***"ABŞ-ın milli təhlükəsizlik strategiyasının formalaşması, prinsipləri və həyata keçirilmə mexanizmləri"***ndən bəhs olunan bu yarımfəsildə ABŞ-da ölkənin milli təhlükəsizlik doktrinasının formalaşmasına ciddi əhəmiyyət verilməsi, bu doktrina vasitəsi ilə xarici siyasət və silahlı qüvvələrin istifadəsi sahəsində mühüm hökumət qərarlarının planlaşdırılıb, qəbul edilməsi, ABŞ-ın "ümumi milli məqsədi"nin millətin, onun institutlarının və güc qaynaqlarının daxili və xarici düşmənlərdən müdafiə olunması vurğulanır.

Qeyd olunur ki, XX əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq formalaşmaqda olan dünya qaydasında ABŞ dövlətinin rolu və yeri, dəyişən şəraitdə ABŞ-ın milli mənafeləri, onun xarici siyasət və metodları ciddi müzakirə obyektinə çevrilmişdi. Z.Bjezinskiyə görə, yaranmış yeni beynəlxalq şəraitdə Amerikada, eləcə də dünyada milli suverenliklə milli təhlükəsizlik arasında olan ənənəvi əlaqə qırılmışdır.[2]

[1] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: 2005, s. 47.

[2] Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: s. 146

ABŞ-ın beynəlxalq səviyyədə milli təhlükəsizliyin təmin olunması sahəsində başlıca xarici siyasət strategiyalarını ümumiləşdirdikdə, onları belə təsvir etmək olar: 1.Yeni təcridçilik. Bu konsepsiyanın tərtibçiləri ABŞ-ın milli mənafelərinin minimum izahından çıxış edirlər. Bu mənafelər ölkənin suverenliyinin, ərazi bütövlüyünün və təhlükəsizliyinin müdafiəsi ilə məhdudlaşır"; 2."Seçkili cəlb olunma". Bu konsepsiya ABŞ-ın milli mənafelərini daha geniş diopozonda götürür. Buna görə də "seçkili cəlb olunma" nəzəriyyəsi dünyanın strateji baxımdan mühüm regionlarında (Qərbi Avropa, Şərqi Asiya, İran körfəzi) ABŞ-ın hərbi mövcudluğunun saxlanılmasını, kütləvi qırğın silahlarının yayılmasına qarşı aktiv fəaliyyəti, regional münaqişələrin profilaktikasını və tənzimlənməsini, beynəlxalq strukturlarda ABŞ-ın xüsusi rolunun təmin olunmasını nəzərdə tutur.[1]; 3."Razılaşdırılmış təhlükəsizlik". Bu konsepsiyada təcavüzün qarşısının alınması və dəf edilməsi üzrə dövlətlərin birgə çoxtərəfli səylərinə üstünlük verilir; 4."ABŞ hegemonluğu" konsepsiyasında hegemonluğa əsaslanan sabitlik modelinə üstünlük verilir.

ABŞ-da milli təhlükəsizliyin təmin olunmasında əsas kateqoriya kimi 1997-ci ildə nəşr olunmuş "XXI əsr üçün ABŞ-ın Milli təhlükəsizlik strategiyası"nda da öz əksini tapmış "milli güc" anlayışından geniş istifadə olunur. ABŞ-ın milli təhlükəsizlik strategiyası Amerika dövlətinin və cəmiyyət həyatının bütün sahələrini əhatə edir. NATO və Avropa Birliyi ilə əməkdaşlığa xüsusi diqqət verilir.

ABŞ-da milli təhlükəsizliyin təmin olunmasının kifayət qədər səmərəli dövlət sistemi fəaliyyət göstərir. 1947-ci ildə "Milli təhlükəsizlik haqqında qanun"a uyğun olaraq xüsusi xidmət orqanlarının fəaliyyətinə nəzarət edən Milli Təhlükəsizlik Şurası təhlükəsizlik sahəsində siyasətin formalaşdırılması prosesində xüsusi rol oynayır. Bu qanununa əsasən yaradılan təhlükəsizlik orqanlarından biri də federal Təhqiqat Bürosudur (FTB). Dünyanın müxtəlif ölkələrində son dərəcə geniş informasiya mənbələrinə və casusluq sisteminə malik Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) ABŞ-ın kəşfiyyat orqanları sistemində aparıcı rol oynayır. Təhlükəsizliyə məsuliyyət daşıyan və müdafiə sahəsində siyasəti həyata keçirən əsas orqanlardan biri də ABŞ-ın Müdafiə Nazirliyidir.

2002-ci il iyunun 6-da Daxili Təhlükəsizlik Nazirliyinin yaradılması təşəbbüsü ilə çıxış edən prezident C.Buş 2002-ci il noyabrın 25-də ABŞ konqresinin nümayəndələr palatasının qəbul etdiyi "Daxili təhlükəsizlik haqqında" qanunu imzalayır və qanuna uyğun olaraq beynəlxalq terrorizm hədələri qarşısında vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədilə DTN yaradılır.

[1] Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı: 2005, s. 237.



Müasir dövrdə ABŞ-ın milli təhlükəsizliyinin təmin olunması sahəsində qarşıda duran ən ciddi problemlərdən biri beynəlxalq terrorizmə qarşı çevik mübarizənin həyata keçirilməsidir. 2001-ci il 11 sentyabrda ABŞ-da törədilən terror aktı milli təhlükəsizliyin təmin edilməsi üçün heç bir qoruyucu vasitənin yetərli olmadığını bir daha göstərdi. Bununla əlaqədar 2002-ci ilin sentyabrında prezident C.Buş əvvəlki konsepsiyalardan daha radikal olub, bütün dünya ölkələrinə yönəlmiş mesaj kimi xarakterizə oluna bilən ABŞ-ın yeni "Milli təhlükəsizlik strategiyası"nı təsdiqlədi. Doktrinada ABŞ-ın daxili və xarici siyasət istiqamətləri konkretləşdirilmiş, müasir dünyanın inkişaf konsepsiyası, qlobal təhlükə mənbələri və onlara qarşı mübarizənin yeni taktiki üsulları öz əksini tapmışdır. Əsas hədəf kimi beynəlxalq terrorizmə qarşı mübarizə seçildi. ABŞ-ın Milli Təhlükəsizlik Strategiyasının həyata keçirilməsində dünya hegemonluğu ambisiyaları xüsusi yer tutur.[1]

Hazırda ABŞ Amerika xalqının təhlükəsizliyinin təmin olunmasında əsas yolu "preventiv diplomatiya"da görür. Beləliklə, ABŞ-ın milli təhlükəsizlik strategiyaları və xarici siyasət doktrinaları beynəlxalq səviyyədə milli təhlükəsizlik sahəsində dövlət siyasətinin konseptual əsaslarını təşkil edir və ölkənin milli mənafelərinin reallaşdırılmasına yönəlmişdir.

***"Rusiyanın milli təhlükəsizlik strategitasının əsas istiqamətləri və mexanizmləri"*** adlanan ikinci yarımfəsildə qeyd edilir ki, Rusiyanın milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib mənafeləri, bu mənafelər üçün mövcud olan daxili və xarici hədələrin qarşısının alınmasında səmərəli vasitələrin müəyyənləşdirilməsi və istifadəsi zərurəti ilə müəyyən olunur. Dövlətin milli təhlükəsizlik siyasətinin səmərəli həyata keçirilməsi məqsədilə müvafiq federal proqramlar hazırlanır və bunların çərçivəsində milli təhlükəsizliyin təmin olunması siyasətinin başlıca vəzifələri müəyyənləşdirilir və həll edilir.[2] XX əsrin sonlarında yaranmış beynəlxalq şərait Rusiyadan da prioritetlərin dəyişdirilməsini tələb edir.

Yarımfəsildə RF-nin milli təhlükəsizliyinin təmin olunması sahəsində əsas vəzifələri sadalanmaqla yanaşı, qeyd olunur ki, müasir dövrdə sülh yaratma və sülhü qoruma sahəsində o qədər də geniş potensiala malik olma-

[1] Цыганков П. А. Международные отношения. М.,1996., s.93
[2] Раджабли А.А. Международные связи Российской Федерации. Баку, 2005, s.28

yan RF bu sahədə fəal rol oynamaq və öz imkanlarını genişləndirmək əzmində olduğu üçün xarici siyasətində çoxtərəfli əməkdaşlığa, xüsusilə, beynəlxalq və regional qurumlarla əməkdaşlığa ciddi fikir verir, BMT və Avropa qurumları ilə əməkdaşlıq ölkənin xarici siyasətində prioritet hesab edilir.

Yarımfəsildə həmçinin, RF-nin milli təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri və bu prinsirləri özündə əks etdirən 10 yanvar 2000-ci il tarixli Milli təhlükəsizlik konsepsiyası, 21 aprel 2000-ci il tarixli Hərbi doktrinası, 28 iyun 2000-ci il tarixli RF-nin Xarici siyasət konsepsiyası, 9 sentyabr 2000-ci il tarixli İnformasiya təhlükəsizliyi doktrinasından, Rusiyanın milli təhlükəsizliyinin təmin olunması məsələlərinin həlli ilə birbaşa məşğul olan əsas nazirlik və idarələr: Müdafiə Nazirliyi, XİN, DİN, FHN, Vergilər Nazirliyi, FTX, Xarici kəşfiyyat Xidməti, Federal Sərhəd Xidməti, Federal Mühafizə Xidməti, Federal Dəmiryolu qoşunları Xidməti, Federal vergi polisi xidməti, RF Prokurorluğu və RF Ali Məhkəməsindən bəhs edilir. Qeyd edilir ki, Rusiyanın milli təhlükəsizliyinin təmin olunmasının dövlət siyasəti də səmərəli xarici siyasət davranışına nail olunmasına və ölkənin milli mənafeləriinin reallaşdırılmasına yönəlmişdir.

***"NATO-nun strateji konsepsiyalarında təhlükəsizliyə dair baxışlar və prinsiplər"*** adlanan ücüncü yarımfəsildə NATO-nun yaradılmasının əsas məqsədi, "Vaşinqton bəyanaməsi", 1991-ci ildən sonra NATO-nun strateji konsepsiyasında yaranan ciddi dəyişikliklərdən bəhs olunur. Göstərilir ki, 90-cı illərin əvvəllərində baş verən proseslər təhlükəsizlik sahəsində keyfiyyətcə yeni vəziyyət yaratmışdı. Buna görə də NATO siyasi strategiyasını müəyyənləşdirərkən və gələcək işlərini planlaşdırarkən Avrasiya məkanında baş verən dəyişiklikləri, ümumi geosiyasi reallığı və s. amilləri də nəzərə alır. Reallıq ondan ibarətdir ki, totalitar rejimlər, onunla birlikdə ABŞ və Qərbi Avropa müttəfiqləri ilə normal tərəfdaşlıq əlaqələrinə mane olan qarşıdurma ruhu artıq tarixə qovuşmuşdur ki, bu da öz növbəsində Şimali Atlantika İttifaqına hərbi funksiyaların daha çox siyasi funksiyalarla əvəz edilməsi haqqında 1990-cı ildə qəbul etdiyi taktikanı həyata keçirmək üçün əlverişli şərait yaratdı.[1] Hərbi-siyasi təşkilat kimi NATO bütün dünyada, o cümlədən, postsovet məkanında münaqişələrin ləğv edilməsində öz rolunu artırmağa, bu ölkələrdə siyasi və iqtisadi böhranın aradan qaldırılmasına, demokratik islahatlar keçirilməsinə zəruri kömək göstərməyə

[1] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: 2005, s. 501-502.



çalışır. NATO-nun saxlanmasının zəruri edən digər bir amil, məhz bu İttifaqın Avropa ilə Amerikanı birləşdirən yeganə vasitə olmasıdır.

ABŞ-da 2001-ci ilin sentyabr hadisələri dünya siyasətində epoxal xarakterli dəyişiklikləri şərtləndirirdi ki, bunlardan biri də NATO-nun 1999-cu il strateji konsepsiyasının yeniləşdirilməsi zərurəti idi. Şərti adı "NATO 2020-ci ildə" olan yeni strateji konsepsiyaya 2009-cu ildə təşkilatın Strasburq və Kele şəhərlərində keçirilən görüşlərində start verildi. Konsepsiya ilk dəfə 2010-cu ilin noyabrında NATO-nun Lissabon görüşündə müzakirəyə çıxarıldı. Yeni konsepsiya NATO-nun beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin qorunmasına kompleks şəkildə adaptasiyasını nəzərdə tuturdu.

***"Avropa Birliyinin ümumi xarici və təhlükəsizlik siyasətinin formalaşması və əsas istiqamətləri"*** adlanan dördüncü yarımfəsildə qeyd olunur ki, Avropa birliyinin yeni strateji kursu öz iradəsini 1985-ci ilin dekabrında Lüksemburqda keçirilən görüşdə dövlət və hökumət başçılarının imzaladığı və 1987-ci il iyulun 1-də qüvvəyə minən "Vahid Avropa Aktı"nda tapmışdı. İlk dəfə olaraq, 1990-cı ilin ortalarından etibarən Qərbi Avropada keyfiyyət dəyişiklikləri ilə səciyyələnən yeniliklərin həyata keçirilməsini nəzərdə tutan AİB-in sənədlərində hərbi əməkdaşlıq haqqında məsələ qoyuldu. Lakin "soyuq müharibə" başa çatdıqdan sonra Avropa Birliyi (AB) beynəlxalq aləmdə önəmli rol oynamaq niyyətlərini ortaya qoydu. Maastrixt müqaviləsi (1992) nəticəsində Avropa Birliyi yeni biçimdə formalaşdı və ilk olaraq məhz bu müqavilədə AB-nin üç sütunundan biri kimi (iqtisadiyyat, ədliyyə və daxili işlərlə yanaşı) Ümumi Xarici və Təhlükəsizlik Siyasəti (ÜXTS) konsepsiyası təsbit olundu. Sonrakı dövrlərdə Amsterdam (1997-ci il 2 okyabr) və Nis (2001-ci il 26 fevral) müqavilələri imzalandı.

AB-ın ÜXTC sahəsində atılan ən önəmli addımlarından biri ÜXTS üzrə Ali nümayəndə Xavyer Solananın rəhbərliyi altında işlənib hazırlanmış Avropa təhlükəsizlik strategiyasıdır. Bu sənəd və AB-ın dövlət və hökumət başçıları Şurasına təqdim olunmuş və 12-13 dekabr 2003-cü il tarixli Brüssel toplantısında qəbul edilmişdi.

Yarımfəsildə qeyd olunur ki, Avropa təhlükəsizlik strategiyası müasir dövrün qlobal çağırışlarını və Birliyin təhlükəsizliyi üçün əsas hədələri müəyyənləşdirir. Sənəd bu hədələrə qarşı durmaq üçün AB-nin strateji vəzifələrini aydınlaşdırır. Avropa Birliyinin strateji vəzifələri, şəraitdən asılı olaraq dəyişilir və yenilənir.Avropa Birliyi öz diqqətini təhlükəsizliyin müdafiəsində və 3 strateji dəyərin həyata keçirilməsində cəmləşdirir:

1.hədələrə qarşı durmaq, 2.Qonşuluq şəraitində təhlükəsizliyin qurulması, 3.Səmərəli çoxtərəfliliyə əsaslanan beynəlxalq nizamın formalaşması.

**"Demokratiya və təhlükəsizlik amillərinin qloballaşma prosesinə təsiri və Azərbaycanın bu prosesdə iştirakı"** adlanan **III fəsli** iki yarımfəslə ayrılır.

***"Qloballaşma prosesində demokratiya və təhlükəsizlik amillərinin rolu"*** adlanan birinci yarımfəsildə demokratik meyarların mahiyyəti və qloballaşma üçün zəruriliyi təhlil edilir. Qeyd olunur ki, qloballaşan dünyada demokratiya və insan hüquqlarının geniş yayılması ilə bir çox beynəlxalq və regional təşkilatlar məşğul olsalar da, bu istiqamətdə ən böyük xidmət ABŞ-a məxsusdur.

Qloballaşma şəraitində bəşəriyyəti narahat edən başlıca amillərdən biri kimi müasir dövrdə beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunması faktoru önə sürülərək, qeyd olunur ki, XX əsrdə ictimai münaqişələrin qloballaşmasının ən mühüm təzahürü müharibələr olduğu üçün dünya sadəcə olaraq sülh haqqında düşünməlidir. Müasir dövrdə sülh quruculuğu fəaliyyətinin təkmilləşdirilməsi və mövcud reallıqlara uyğunlaşdırılması vacibdir, çünki, müasir qlobal proseslərdə silahlı münaqişələrin ən çox üstünlük təşkil edən forması kimi vətəndaş müharibələri hazırda əhaliyə dəhşətli ziyan vurur və çox vaxt qonşu dövlətlərə sirayət edir. Ona da əlavə olunur ki, sülh quruculuğu fəaliyyətində demokratiyanın da mühüm rolu vardır. 1990-cı illərdə bir çox sülh proseslərinin arzuolunmaz istiqamətdə inkişaf etməsi acınacaqlı olsa da, fakt kimi nəzərdən keçirilir. Göstərilir ki, münaqişələr yeni problemlər: işsizlik, yoxsulluq, pozğunluq, zorakılıq, narkomaniya, terrorizm və digər sosial bəlalar yaradır ki, münaqişələrin həlli uzandıqca bu bəlaların qloballaşması ehtimalı da artır.

Yarımfəsildə həmçinin, qlobal təhlükəsizlik üçün ən böyük problem olan və durumu daha da mürəkkəbləşdirən cəhətlərdən biri kimi bir sıra ölkələrdə hərbi-sənaye kompleksləri ilə dövlət strukturlarının birləşməsindən, müasir dövrdə qlobal təhlükəsizlik problemləri içərisində ən kəskini olan tərksilah və silahlar üzərində nəzarət məsələsindən, başlıca problemlərdən biri olan ətraf mühitin çirklənməsindən bəhs edilir və bu problemlərə münasibət bildirilir. Eyni zamanda qeyd olunur ki, hazırda Qərbin aparıcı dövlətlərinin və təşkilatlarının qloballaşma prosesinə başlıca təhlükə olan, beynəlxalq terrorizmin dayaqlarının sarsıdılması baxımından dünyadakı münaqişə ocaqlarının söndürülməsi artıq vacib sayılmağa başlayıb. Bu baxımdan Yaxın Şərq probleminin tez bir zamanda nizamlanmasına xüsusilə böyük önəm verilir.



Sivilizasiyalı dünya üçün təhlükəli faktorlardan biri kimi transmilli cinayətkarlıqdan, bu cinayətkarlığa zəmin yaradan vətəndaş müharibələrindən, etnik konfliktlərdən, milli azadlıq mübarizələrdən və terrorçu təşkilatlardan bəhs edilərək, qeyd olunur ki, diasporlar öz vətənində etnik və milli mübarizəyə dəstək verirlər.

Yarımfəsildə eyni zamanda, Ermənistanın terror-separatizm siyasəti nəticəsində Azərbaycana vurulan zərər, 1988-ci ildən bəri ermənilərin azərbaycanlılara qarşı həyata keçirtdikləri 32 terror aktları nəticəsində 2000-dən artıq günahsız insanın həlakı, ölkəmizə dəymiş 435,5 milyard dollardan çox maddi ziyan vurğulanaraq, qeyd edilir ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlara beynəlxalq nəzarətin olmaması bu regionu nəzarətsiz zonaya çevirmiş, hazırda yaranmış fürsətdən istifadə edən separatçı rejim bu ərazilərdə narkotik maddələrin becərilməsi və satışı, qanunsuz silah və insan alveri, çirkli pulların yuyulması və digər cinayətkar məqsədlər üçün istifadə edir, əldə olunan gəliri isə terrorizmin maliyyələşdirilməsinə yönəldirlər. Bu isə regional və qlobal təhlükəsizliyə böyük zərbə kimi qiymətləndirilməlidir.

***"Azərbaycan Respublikası qlobal proseslər sistemində"*** adlanan ikinci yarımfəsildə hazırki mərhələdə Azərbaycan cəmiyyətinin sabit inkişafı üçün vətəndaş mədəniyyətinin yaradılması, iqtisadiyyatın müxtəlif sahələrinin müasir informasiya və kommunikasiya texnologiyaları bazarına inteqrasiyası üçün sabit inkişafa nail olunması, Azərbaycan mədəniyyətinin özünəməxsusluğunu təyin edən ənənəvi dəyərlərlə açıq bazar və liberal demokratiya prinsipləri arasında konsensus əldə olunması kimi amillər nəzərə çatdırılır.

Qeyd edilir ki, inzibati amirlik sisteminin süqutundan sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin dünya ölkələrinin birliyinə qovuşması aktuallığını itirməyəcək problemlərdəndir və bu səbəbdən Azərbaycanın dünya birliyinə inteqrasiyasına ilk növbədə məhz iqtisadi aspektdən yanaşmaq doğru olardı.Ölkənin milli iqtisadi inkişaf strategiyası isə qabaqcıl ölkələrin müsbət təcrübəsi və müasir dünyada gedən proseslər nəzərə alınmaqla hazırlanır. Qloballaşma prosesində ticarət-iqtisadi əlaqələrin genişlənməsi xarici kapitalın ölkəmizə geniş cəlb olunması üçün böyük imkanlar yaradır. Qeyd edilir ki, hazırda ölkəmiz dünyanın 100-dən artıq ölkəsi ilə iqtisadi-ticarət əlaqələrinə malikdir. ARDNŞ ilə xarici şirkətlər arasında bağlanmış müqavilələr əsasında ölkəmizə milyardlarla dollar məbləğində kapital axıb gəlmişdir. Ən böyük uğurlardan biri kimi 1994-cü il 20 sentyabrda imzalanan "Əsrin müqaviləsi" Azərbaycan neftinin dünya bazarına çıxması

zəminində xalqımızın öz sərvətlərinin sahibi olduğunu, respublika iqtisadiyyatının dünyaya inteqrasiyasını bir daha təsdiqləyir. Azərbaycan Respublikasının qloballaşma proseslərində iştirakında və dünyaya inteqrasiyasında qlobal layihələr mühüm rol oynayır. Belə layihələrin içərisində TRASEKA-nın - Qərb-Şərq nəqliyyat dəhlizinin rolu danılmazdır. Bu, milli nəqliyyat sisteminin Avropa və dünya nəqliyyat sahələrinə qoşulması deməkdir. Böyük İpək yolu proqramı çərçivəsində yerinə yetirilən investisiyalar, beynəlxalq yükdaşımalarının artması Qafqazda siyasi və geopolitik şəraitin formalaşmasına birbaşa təsir göstərir.[1]

Respublikamızın beynəlxalq aləmlə əlaqələrinin genişləndirilməsi inkişaf etmiş ölkələrlə mütərəqqi texnika və texnologiyaların, inteqrasiyanın və ticarət münasibətlərinin həyata keçirilməsi, iri həcmli kapital qoyuluşu və investorların ölkəmizə gəlişinin sürətlənməsi Azərbaycanda əlverişli mühitin mövcudluğundan xəbər verir. Azərbaycanın qloballaşma proseslərində iştirakında azad iqtisadi zonaların (AİZ) yaradılması mühüm yer tutur və bununla bağlı 1994-cü ildən müxtəlif beynəlxalq və regional təşkilatlarla fəal iş aparılır. Qloballaşma proseslərində hansı səviyyədə yer tutması ölkəmizin xarici siyasətinin əsas istiqamətlərinin, geosiyasətinin və beynəlxalq təşkilatlarla əlaqələrinin müasir dövrün tələblərinə cavab verməsindən asılıdır. Azərbaycan diplomatiyası praqmatik və tarazlaşdırılmış siyasət yeridərək, Ermənistan istisna olmaqla, həm qonşu ölkələrlə, həm də böyük dövlətlərlə partnyorluq münasibətlərinin yaradılmasına və inkişaf etdirilməsinə nail olmuşdur ki, bununla da ölkəmizin qloballaşma şəraitində yeri və rolu haqqında müsbət qənaətə gəlmək olar. Azərbaycan Respublikasının Avrasiya məkanında strateji əhəmiyyətə malik olan coğrafi mövqeyi, xarici siyasəti və demokratik meyarlara sadiqliyi, dövlətin qloballaşma prosesinə cəlb edilməsini təmin edir, onun ölkəmizə verdiyi üstünlüklərdən yararlanmağa geniş imkanlar yaradır. Eyni zamanda, qeyd etmək lazımdır ki, dünyada geniş vüsət almış bu proses müsbət cəhətləri ilə yanaşı bir çox hallarda mənfi, milli mentalitetimizə və mədəniyyətimizə yad olan dəyərləri də yayır. Bu isə Azərbaycan xalqının özünəməxsusluğuna, cəmiyyətdə əsrlərdən bəri formalaşmış davranış modellərinə ağır zərbə vurur.

Dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurularaq, əldə olunmuş nəticələr və gələcək perspektivlər müəyyənləşmişdir.

[1] Xəlilov S. Lider, dövlət, cəmiyyət. Bakı: 2001, s. 128-130.



**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr ounmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**

1. Beynəlxalq münasibətlər elmində qloballaşma prosesinin təhlili // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi-analitik və praktiki jurnal, № 3(15). Bakı: 2008, s. 250-258.

2. "Milli təhlükəsizlik" anlayışına konseptual yanaşmalar // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi-analitik və praktiki jurnal, № 4(16). Bakı: 2008, s. 235-245.

3. Böyük dövlətlər və onların milli təhlükəsizlik konsepsiyaları (ABŞ və RF-nin timsalında) // "Tarix və onun problemləri" jurnalı, № 3, Bakı: 2010, s. 127-130.

4. Azərbaycanın qloballaşma prosesində iştirakının təhlükəsizlik aspektləri. BDU Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi / Ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr edilmiş "Heydər Əliyev və Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətinin əsas inkişaf tendensiyaları" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: 06-07 may, 2010, s. 380-383.

5. Beynəlxalq təhlükəsizlik sistemi və NATO. BDU Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi / İnsan hüquqları haqqında ümumi bəyannamənin qəbul edilməsinin 62-ci ildönümünə həsr edilmiş "İnsan hüquqları sahəsində Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasəti: formalaşması və yeni inkişaf tendensiyaları" mövzusunda 09 dekabr 2010-cu il tarixdə keçirilmiş elmi-praktik konfransın materialları. Bakı, 2010, s. 30-32.

6. Azərbaycan Respublikasının xarici siyasəti və təhlükəsizlik konsepsiyası arasında əlaqə // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi-analitik və praktiki jurnal, № 1(21). Bakı: 2010, s. 126-131.

7. Milli maraqlar aspektindən milli təhlükəsizlik siyasətinin əhəmiyyəti // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi-analitik və praktiki jurnal, № 4(24). Bakı: 2010, s.125-128.

8. Некоторые примеры концепций национальной безопасности разных стран // "Гилея: научный вестник", № 12(79). Киев, 2013, s. 314-316.

Э. Э. Велиев

# ПОНЯТИЕ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ И ПРОЦЕС ГЛОБАЛИЗАЦИИ

## РЕЗЮМЕ

Основная цель диссертации заключается в выявлении связи между глобализацией и национальной безопасностью.

Во введении обоснованы актуальность темы и научная значимость, выявлена степень изученности проблемы, указана база источников, определены цели и задачи исследования, освещены методологические основы, научные новшества, а также отмечены теоретическая и практическая значимость.

**В I главе** разделенной на 3 подраздела, рассматриваются такие вопросы, как подходы к понятию "национальная безопасность", анализ процесса глобализации в современных международных отношениях и политика национальной безопасности Азербайджанской Республики на современном этапе глобализации.

**Во II главе** "Основные направления стратегий безопасности ведущих государств и международных организаций", разделенной на 4 подраздела, повествуется о принципах формирования и механизмах реализации стратегии национальной безопасности США и России, взглядах и принципах безопасности в стратегических концепциях НАТО, формировании и основных направлениях общей внешней политики и политики безопасности Европейского Союза.

**В III главе** "Влияние демократии и факторов безопасности на процесс глобализации и участие Азербайджана в этом процессе", разделенной на 2 подраздела, анализируется роль факторов безопасности и демократии в процессе глобализации, участие Азербайджанской Республики в системе глобальных процессов.

**В заключительной** части диссертации обобщены общие положения исследования, подведены итоги проведенных исследований а также определены достигнутые результаты и будущие перспективы.



E. E. Veliyev

# THE NATIONAL SECURITY CONCEPT AND GLOBALIZATION PROCESS

## SUMMARY

The main objective of dissertation is to identify the relations between globalization and national security.

**In Introduction** substantiated relevance of the topic and scientific significance, revealed the degree of study of the problem, listed base of references, defined goals and objectives of the study, highlighted methodological bases, scientific innovation, noted theoretical and practical value.

**In Chapter I,** “Theoretical-methodological foundations of concepts of modern national security and globalization and national security policy of the Republic of Azerbaijan”, divided into three subsections, considers approaches to the concept of “national security”, analysis of globalization in contemporary international relations, national security policy of the Republic of Azerbaijan at the current stage of globalization.

**In Chapter II,** ”The main directions of security strategies of the leading countries and international organizations”, divided into four subsections, treats of the principles of the formation and implementation mechanisms of U.S. and Russia’s national security strategy, the main directions of the general foreign and security policies of the European Union, as well as highlighted significance of the formation of national security, the measures for planning, adoption and implementation of important decisions in this area.

**In Chapter III,** “Impacts of democracy and security issues on the process of globalization and Azerbaijan's participation in this process”, divided into two subsections, examines the role of the security and democracy in the globalization process, Azerbaijan’s participation in the system of global processes.

**In Conclusion** summarized general provisions and results of the study, and identified achievements and future prospects.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАУЧНО ИССЛЕДОВАТЕЛЬСКИЙ ИСТИТУТ ПО ПРАВАМ ЧЕЛОВЕКА**

***На правах рукописи***

**ЭЛЬХАН ЭЛЬДАР оглы ВЕЛИЕВ**

# ПОНЯТИЕ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ И ПРОЦЕС ГЛОБАЛИЗАЦИИ

**Специональность: 5901.01 – «Международные отношения»**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации представленной на соискание ученой степени доктора философии по политическим наукам**

**БАКУ – 2014**